**UDC:** 821. 512.161; 82-3.512.162
**LBC:** 88.4; 88.5; 83.3 (0) 6; 74.268.0
**MJ №** 242
10.33864/2617-751X.2024.v7.i4.122-133

# Influences of Turkism on Azerbaijani Literary Thinking

**Sakhavat Azizov***
**Bahtiyar Aslan****

**Abstract.** The emergence of Turkism in Azerbaijani literature occurred after the rise of literary Turkism in Ottoman Turkey, where it first developed and flourished. Although ideas of Turkification or a return to Turkism, as proposed by Ottoman thinkers, writers, and educators, initially sparked debate, over time these ideas evolved into an ideology and eventually a well-established concept. Unlike political Turkism, literary Turkism gained widespread acceptance among the people through the works of writers and poets, who awakened national feelings and patriotism. The ideas of literary Turkism gradually transcended Ottoman Turkey's borders, spreading into the Azerbaijani literary environment and influencing Azerbaijani writers and poets. In Azerbaijan, people discussed these ideas, which piqued their interest through newspapers, magazines, and books published in Istanbul. Azerbaijani writers and thinkers, inspired by these ideas, promoted them in their writings and sought to make them widespread. Even earlier, Mirza Fatali Akhundov, by creating works in his native language, laid the foundation for Turkism in terms of writing and language, albeit indirectly. After him, Hasan bey Zardabi, Ahmad bey Aghaoghlu, and especially Ali bey Huseynzadeh, contributed significantly to this movement through their writings. This paper explores the emergence, development, and dissemination of literary Turkism in Azerbaijan.

**Keywords:** Turkism, literary Turkism, national revival, self-perception, patriotism, literary thinking

---

* Doctoral student, Department of Turkish Studies, Institute of Social Sciences, Istanbul University; Istanbul, Turkey (corresponding author)
E-mail: sehavetsahil@gmail.com
https://orcid.org/0000-0002-2952-388X
** Associate Professor, Dr.,
Department of Turkish Language and Literature, Faculty of Human and Social Sciences, Bandırma Onyedı Eylul Unıversıty; Balıkesir, Turkey
E-mail: baslan@bandirma.edu.tr
https://orcid.org/0000-0002-8136-9752

**To cite this article:** Azizov, S., & Aslan, B. [2024]. Influences of Turkism on Azerbaijani Literary Thinking. *"Metafizika" journal, 7(4),* pp.122-133.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i4.122-133

**Article history:**
*Received: 08.09.2024*
*Accepted: 28.10.2024*

**УДК:** 821. 512.161; 82-3.512.162
**ББК:** 88.4; 88.5; 83.3 (0) 6; 74.268.0
**MJ №** 242
10.33864/2617-751X.2024.v7.i4.122-133

# Влияние Тюркизма на Азербайджанскую Литературную Мысль

**Сахават Азизов***
**Бахтияр Аслан****

**Абстракт.** Мысли о тюркизме в азербайджанской литературе возникли после появления литературного тюркизма в Османской Турции, т.е. в период зарождения и распространения литературного тюркизма. Хотя идеи тюркизации или возврата к тюркизму, выдвигаемые османскими мыслителями, писателями и интеллектуалами, поначалу вызывали некоторые споры, со временем они превратились из идеи в идеологию и, наконец, стали концепцией. В отличие от политического тюркизма литературный тюркизм еще шире распространялся благодаря произведениям писателей, особенно поэтов и вызывал пробуждение национальных чувств и патриотизма в народе. Идеи литературного тюркизма, вышедшие за пределы Османской Турции, распространились в литературную среду Азербайджана и заставили задуматься азербайджанских писателей и поэтов. Благодаря газетам, журналам и книгам, издаваемым в Стамбуле возрастал интерес читателей к идеям тюркизма и в результате они стали обсуждаться и в Азербайджане. Азербайджанские писатели и мыслители, находившиеся под влиянием этих идей, защищали в своих произведениях идею тюркизма и пытались ее распространять. Даже Мирза Фатали Ахундов, создавая свои произведения на родном языке, укрепил основы тюркских идей в письменном и языковом плане, хотя и не напрямую. После него на этом пути усердно трудились и публиковали труды Гасан бек Зардаби, Ахмед бек Агаоглу, особенно Али бек Гусейнзаде. В данной статье повествуется о возникновении, формировании и распространении литературного тюркизма в Азербайджане.

**Ключевые слова:** тюркизм, литературный тюркизм, национальное пробуждение, самосознание, патриотизм, мысль

* Стамбульский Университет, докторант отдела «Туркологические исследования» Института Социальных Наук; Стамбул, Турция (ответственный автор)
E-mail: sehavetsahil@gmail.com
https://orcid.org/0000-0002-2952-388X
** Доцент, доктор,
Университет Бандырма Онйеди Эйлюль, факультет «Человеческих и социальных ресурсов», кафедра «Тюркского языка и литературы»; Балыкесир, Турция
E-mail: baslan@bandirma.edu.tr
https://orcid.org/0000-0002-8136-9752

**Цитировать статью:** Азизов, С., & Аслан, Б. [2024]. Влияние Тюркизма на Азербайджанскую Литературную Мысль. *Журнал «Metafizika», 7(4),* с.122-133.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i4.122-133

**История статьи:**
*Статья поступила в редакцию: 08.09.2024*
*Отправлена на доработку: 27.09.2024*
*Принята для печати: 28.10.2024*

**UOT:** 821. 512.161; 82-3.512.162
**KBT:** 88.4; 88.5; 83.3 (0) 6; 74.268.0
**MJ №** 242
10.33864/2617-751X.2024.v7.i4.122-133

# Türkçülüyün Azərbaycan Ədəbi Düşüncəsinə Təsiri

**Səxavət Əzizov***
**Bəxtiyar Aslan****

**Abstrakt.** Türkçülük düşüncələri əvvəlcə ədəbi türkçülüyün yarandığı və yayılmağa başladığı Osmanlı Türkiyəsində daha sonra isə Azərbaycan ədəbiyyatında meydana gəlmişdir. Osmanlı fikir adamlarının, yazar və maarifçilərin irəli sürdüyü türkləşmək və ya türkçülüyə qayıdış ideyaları ilk vaxtlarda müəyyən mübahisə doğursa da, zaman keçdikcə ideyadan idelogiyaya çevrilmiş və nəticədə konsepsiya halına gəlmişdir. Siyasi türkçülükdən fərqli olaraq ədəbi türkçülük yazarların, xüsusən də şairlərin əsərləri ilə daha da geniş yayılmış, xalq arasında milli hisslərin, vətənpərvərlik duyğularının oyanmasına səbəb olmuşdur. Osmanlı Türkiyəsinin sərhədlərini aşan ədəbi türkçülük ideyaları Azərbaycan ədəbi mühitinə yayılmış, azərbaycanlı yazarları, şairləri də düşündürmüşdür. İstanbulda nəşr edilən qəzetlər, jurnallar və kitablar vasitəsi ilə oxucuların marağına səbəb olan türkçülük fikirləri Azərbaycanda da müzakirə edilirdi. Bu ideyalardan təsirlənən azərbaycanlı yazarlar və fikir adamları öz əsərlərində türkçülük ideyalarını müdafiə edir, onun yayılmasına səy göstərirdilər. Mirzə Fətəli Axundov öz əsərlərini ana dilində yaratmaqla birbaşa olmasa da yazı və dil baxımından türkçülük fikirlərinin təməlini möhkəmlətmişdi. Ondan sonra Həsən bəy Zərdabi, Əhməd bəy Ağaoğlu, xüsusən də Əli bəy Hüseynzadə bu yolda əmək sərf etmiş, əsərlər yaratmışlar. Bu məqalədə Azərbaycanda ədəbi türkçülüyün yaranması, onu formalaşması və yayılması haqqında bəhs edilmişdir.

**Açar sözlər:** türkçülük, ədəbi türkçülük, milli oyanış, özünüdərk, vətənpərvərlik, düşüncə

* İstanbul Üniveristeti, Sosial Elmlər İnstitutu Türkiyat Araştırmaları şöbəsinin doktorantı, İstanbul, Türkiyə (məsul müəllif)
E-mail: sehavetsahil@gmail.com
https://orcid.org/0000-0002-2952-388X
** Doçent, Dr.,
Bandırma On Yedi Eylül Üniversitesi, İnsan ve Toplum Bilimleri Fakültesi, Türk Dili ve Edebiyatı Bölümü, Balıkesir, Türkiye
E-mail: baslan@bandirma.edu.tr
https://orcid.org/0000-0002-8136-9752

**Məqaləyə istinad:** Əzizov, S., & Aslan, B. [2024] Türkçülüyün Azərbaycan Ədəbi Düşüncəsinə Təsiri. *“Metafizika” jurnalı, 7*(4), səh.122-133.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i4.122-133

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 08.09.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 27.09.2024*
*Çapa qəbul edilmişdir: 28.10.2024*

## 1.Giriş

Azərbaycanda ədəbi türkçülük ideyaları osmanlı-türk yazar və şairlərinin əsərləri ilə başlamış, həmçinin Azərbyacanda və Osmanlı dövlətində çap olunan dərgi və qəzetlərdə yer alan türkçülük düşüncəsinin özündə əks etdirən bədii mətnlər vasitəsi ilə yaranmış və yayılmışdır. Türkçülüyün yaranmasıyla bağlı danışarkən azərbaycanlı yazıçı Mirzə Fətəli Axundov və Krım tatarlarından naşir İsmayıl Qaspıralını xüsusilə qeyd etmək lazımdır. Onlardan başlayan yol inkişaf etmiş XX əsrin əvvəllərində ideoloji mahiyyət kəsb etmişdir. Azərbaycanda ədəbi türkçülüyün formalaşmasında türş şairi Mehmet Emin Yurdakulku da unutmaq olmaz. Yurdakula qədər Azərbaycan yazarlarında ədəbi türkçülük düşüncəsi daha çox bidii bulisitik və bədii-fəlsəfi yazılarla yaranırdısa, Yurdaquldan sonra bu daha çox poeziyada öz nəticəsini göstərmiş oldu. Bundan başqa tükçülük düşüncəsinin yüksəlməsində özünüdərkin və Azərbaycan xalqının azad və sərbəst yaşamaq istəyinin də rol aldığını əminliklə deyə bilərik.

## 2.Azərbaycan ədəbi düşüncəsində türkçülüyün yaranmasında rol oynayan şəxslər

### 2.1.Mirzə Fətəli Axundov

Azərbaycanda türkçülük düşüncəsinin oyanmasında birbaşa olmasa da Mirzə Fətəli Axundovun (1812-1978) adı olmadan türkçülük məfkurəsinin yaranmasından danışa bilmərik. İlk dəfə Azərbaycan Türkçəsində yazdığı komediyalarıyla Axundov türkcə yazmağın və yazıda düşüncəsinin əsasını qoymuşdur. Eyni zamanda milli şüurun və mili kimliyin oyanmasında da ciddi rol oynamışdır. Azərbaycan xaqının ədəbi, maarifçilik və mədəni həyatında Mirzə Fətəlıi Axundov xüsusi bir mərhələ təşkil edir. Onu fəaliyyəti təkcə Azərbaycan və Türk dünyası ilə deyil, bütün İslam Şərqi üçün tarixi məna və həmiyyət kəsb edir. Peşəkar milli teatr sənətinin, raelist bədii nəsrin, fəlsəfi və estetik fikirin bir çox mədəni sahələrdə avropalaşmağın banisi sayılan Mirzə Fətəlinin zəngin və çoxsahəli yaradıcılığı ümumtürk düçüncəsinin oyanmasına, yaranmasına və formalaşmasına xismət etmişdir. [Əhmədli, 2007, s.77]

Mirzə Fətəli Axundov nəinki Azərbaycanda, həm də Şərqdə yenilikçi adı ilə avropalaşmağın zəruri oduğunu ilk olraqa qəbul edən və bunu öz əsərlərində və fikirlərində ifadə edən bir düçüncə adamı kimi özündən sonra gələn şəxsələrə və onların düşüncələrini ciddi təsir göstərmişdir. Rusya müsəlmanları və türk dünyasında yeniləşmənin ilk tərəfdarlarında olan Axundov öz dövrünün ziyalı və aydınları ilə görüşlər keçirir, fikir mübadiləsi apararaq müsəlman dünyasında mədəni tərəqqiyə nail olmaq istəyirdi. [Əhmədli, 2019, s.75]

Əsas əsərlərini sadə türkçədə yazan Mirzə Fətəli Axundov türkçənin rolunu ədəbiyyata ortaya qomuşdur. Həm öz dövründə həm də özündən sonrakı dövrlərdə də onun türkçə yazdığı komedyalar şair və yazıçılara örnək olmuşdur, türkçülük düşüncəsinin formalaşmasına təsir göstərmişdir. Bu baxımdan Mirzə

Fətəli Axundovu türkçülük düşüncəsinin formalaşmasında yer alan şəxslərin sırasında görə bilərik.

**2.2.Həsən bəy Zərdabi**

Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabi (1842-1907) Əkinci adlı qəzet yaratmaqla türk dilinin xalq arasında yayılmasına və yazı dili olmasına xidmət göstərmişdir. Həsən bəy Zərdabi Osmanlı Türkiyəsindən hürufat gətizdirmiş və nəhayət, xeyli zəhmət çəkdikdən, əzab-əziyyətə qatlaşdıqdan sonra, 22 iyul 1875-ci ildə Bakıda türk dilində "Əkinçi" qəzetinin nəşrinə nail ola bilmişdir. Bu qəzetlə Azərbaycanda milli türk mətbuatının əsası qoyulmuşdur. "Əkinçi qəzeti" Qafqazda, həmçinin də bütün çar Rusiyası ərazisində nəşr olunan ilk türk dillində qəzet olmuşdur. [Aydınoğlu, 2013, s.36.]

O dövrün, demək olar, düşüncə adamı və ziyalıları ictimai və mədəni tərəqqi naminə müxtəlif vasitələrə, yenilikci məqədlərə müraciət edirdilər, təkcə ədəbiyyat və dilçilik deyil eyniz zamanda elmin ayrı-ayrı sahələri ilə cəhalətin, geriliyin aradan qaldırılması üçün var gücləri ilə çalışırdılar. Həsən bəy Zərdabi Azərbaycanda elmin və maarifçiliyin nümayəndəsi kimi ilk darvinist alimdir, filosofdur. Eyni zamanda cəmiyətin zülmət və cəhalət içində olduğu bir vaxtda ona yol göstərən, doğru yola yönəldən, elmə, maarifçiliyə, inkişafa istiqamət verəndir. Həmin vaxt Qafqazda, müsəlman türklri arasında şox az adam var idi. Belə fədakar insanlardan biri də Həsən bəy Zərdabi idi. Böyük maarifçilik missiyasının çiyinlərində daşıyaraq, yenilikçi düşüncə ilə öz xalqının tərəqqisi yorulmadan fəaliyyət göstərərək milli hisslərə sahib ziyalı nəslinin yetişməsində Həsən bəy Zərdabinin əvəzolunmaz xidmətləri var. Özünü Həsən bəy Zərdabinin tələbəsi və ardıcılı sayan çoxsaylı şəxlər Azərbaycanda türkşülük düşüncsinin yaranmasında ciddi işlər görmüşdür. [İ.S.Əliyeva, Bakı Univeristetinin Xəbərləri, 2013/2, 176-180]

Həsən bəy Zərdabinin qəzeti "Əkinçi" Bakıda çap olunmasına baxmayaraq tez bir zamanda Çar Rusiyasında yaşayan müsəlman-türklərin əsas qəzetinə çevrildi. Qəzet Qafqazın hər yerində, Mərkəzi Asiyada, Türküstanda, Şərqi Avropada və Sibirdə oxunurdu və müzakirələrə səbəb olurdu. Onun fəaliyyəti nəticəsində Azərbaycanda türk ədəbi dilinin formalaşması və yenilənməsi daha da sürətləndi. "Əkinçi" ədəbi mövzularla bağlı yazılar çap etmiş və bu istiqamətdə davamlı olaraq məqalələrə öz səhifələrində yer ayırmışdır. Qəzetdə cap olunan yazılarda əski şeir üslub və qəlbləri, ictimai əhəmiyyəti olmayan şeirlər tənqid olunmuş, cəmiyyətin bugünü və realist düşüncəsinin poetik yöndə təqdim etməyi, şair və yazarları həqiqət naminə yazmağa və düşünməyə çağırışlar əks olunmuşdur. Həsən bəy Zərdabi ədəbiyyat sahəsində fəaliyyət göstərən şəxsləri gerçək dünya ilə uyğunlaşmağa səsləyirdi. Bu isə yeni tərzdə ədəbiyyatın, ədəbi düçüncənin yaranması demək idi. Yeni tərzdə yaranan ədəbiyyat təbii ki aydın türkçənin də formalaşmasına xidmət edirdi. Onun maarifçilik fəaliyyətindən və

nəşr etdirdiyi qəzetdən də görünür ki, xalqının özünüdərki və milli türkçülük düşüncəsi hər zaman onu düşündürmüşdür. [Aşırlı, 2009, s.26]

**2.3.Əli bəy Hüseynzadə**

Mütəfəkkir yazıçısı, publisist və ədəbiyyat tənqidçisi, XX əsr Azərbaycan-türk ictimai fikrinin ən görkəmli nümayəndələrindən biri olan Əli bəy Hüseynzadə (1864-1940) Rusyada və Qafqazda türkçülük düşüncəsinin yaranmasında və möhkəmləsində ciddi rol oynamışdır. Əli bəy Hüseynzadə həyatı boyu türkçülüyə xidmət etmişdir. Türkçülüyü milli ideologiya səviyyəsinə qaldırılmasında fəaliyyət göstərən əsas şəxslərdən biri ki, bu gün də hörmət və ühtiranla yad edilir. Türk xalqları və onların dili Əli bəy Hüseynzadənin fəaliyyəti boyunca onu düşündürən bir problem kimi diqqətini hər zaman özünə çəkmişdir. O dövrdə nəşr olunan ayrı-ayrı mətbuat səhifələrində türk xalqlarının problemlərini, xüsusilə də dil məsələləri ilə bağlı yazdığı məqalələr bütün bunları bir daha sübut edir. Əli bəy Hüseynzadənin Azərbaycanda "Həyat" və "Füyuzat"da fəaliyyəti, Türkiyədə "Türk yurdu" jurnalında, "Türk ocağı" dərnəyində, "Xalqa doğru", "Məlumat", "Yeni məcmuə" kimi mətbuat orqanlarında fəaliyyəti, "Turan" heyətinin tərkibində Qərbi Avropa ölkələrinə səfərləri, Macarıstanda nəşr olunan "Rusiya müsəlmanlarının tələbləri" kitabında Rusiyanın tərkibində olan türk-müsəlman xalqlarının isiqlaliyyətini iddia etməsi, Almaniyada «Türk xalqları konqresi»ndə irəli sürdüyü düşüncələr türk milləti onun dili və bunlarla bağlı olan problemlərin həlli üçün yorulmadan gördüyü işlər idi. [Həsənova, Əli bəy Hüseynzadənin Dilçilik Görüşləri, Naxçıvan Müəllimlər İnstitu, 2006, s.18]

On doqquzuncu əsrin ortalarından başlayaraq bütün Türk dünyasında elmi, ədəbi, mədəni və sosial-ictimai düşüncədə özünüdərkin yəni türkləşməyin idalogiyası ətrafında ciddi canlanma var idi. Türk dünyasının hər yerində hər kəs milli hissələrlə düşünür, millilik duyğuları ilə türkçülüyün tarixi və öznüdərki ətrafında birləşərək onu əsaslı şəkildə dərk etməyə çalışırdı. Türkiyədə Tənzimatçılar hərəkatı, Azərbaycanda Mirzə Fətəli Axundovun ədəbi türkçülüyü (Türkcə nəsr əsərləri yazmaqla), Həsən bəy Zərdabinin «Əkinçi» qəzetinin milli mövqeyi, ana dili olan türk dilində qəzet nəşr etməsi, Krımda İsmayıl bəy Qaspıralının "Dildə, işdə, fikirdə birlik" ideyalı "Tərcüman" qəzetinin məramı olan Türk birliyi, - bütün bunlar Türklüyün ədəbi, mədəni, sosial və elmi oyanışından xəbər verirdi. Türkçülüyün sosial-siyasi, milli-ideoloji, nəzəri və ədəbi yönləri bir-birindən ayrılaraq konsepsiya halına gəlirdi. Milli oyanış, türkçülük problemləri Əli bəy Hüseynzadənin əsərlərində, həm xüsusi olaraq bu mövzuda yazdığı elmi-nəzəri araşdırmalarında başlıca istiqamət olaraq qalırdı. Onun "Türklər kimdir və kimlərdən ibarətdir?" əsəri xüsusilə qeyd etmk lazımdır. Türklərin tarixi, milli özünüdərki, milli birliyi və türkçülüyün nəzəri əsasları bu əsərlə təşəkkül tapmışdır. Hər zaman türkçülük ideyasına xidmət edən, bu mövzuda həm siyasi həm də ədəbi əsərlər ortaya qoyan Əli bəy

Hüseynzadə nəşr etdiyi "Füyuazat" jurnalı ilə Azərbaycanda ədəbi türkçülüyə ciddi təsir etmişdir. Onun rəhbərliyi ilə "Füyuzat" ətrafında toplanan yazarlar Azərbaycanda ədəbi türkçülük düşüncəsinin yaranmasında və inkişaf etməsində böyük zəhmət və əmək sərf etmişlər.[Osmanlı, 2010, s.31]

Türkçlük hərəkatının geniş bir şəkildə yaranması və inkişaf etməsi üçün müəyyən bir zamana ehtiyac olmuşdur. Türkçülük ideyasının bir sıra türkçü aydınlarla yanaşı Əli bəy Hüseynzadə tərəfindən də irəli sürülməsi dünyanın ayrıayrı yerlərində yaşayan bütün türk xalqlarını birləşdirmək ehtiyacından yaranmışdı. Avropa ölkələrində və Çar Rusiyada müstəmləkəçiliyin olduğu zamanda türkçülük ideyası yeni bir ictimi-siyasi düşüncənin yaranmasına səbəb oldu. Əli bəy Hüseynzadə hələ ozaman "Qəzetəmizin məsləki" adlı məqaləsində yazırdı ki, müsəlmanıq, onun üçün dünyanın hər yerində köməyinə çatdığımız din qardaşlarımız tərəqqi etsə biz o tərəqqini cani dildən alqışlayarıq. Türkük, yaranışdan türkük. Türkün hər yerdə tərəqqi və inkişaf edərək xöşbəxt lmasını arzu edərik. Bu fikri və düşüncəni hər zaman öz yazılarında qoruyub saxlayan Əli bəy Hüseynzadə bütün fəaliyyətində bu məsləkə xidmət etmiş, onu özünün həyat idealına çevirərək ömrü boyu türkçülüyün yayılması və inkişaf etməsi üçün bir ədbib kimi yorulmadan çalışmışdır. [Əhmədli, 2017, s.186]

**2.4.Əhməd bəy Ağaoğlu**

Azərbaycan və Türkiyənin ictimai-siyasi xadimi, publisist, müəlim, yazıçı, jurnalist Əhməd bəy Ağaoğlu (1869-1939) yazıları, düşüncələri və fəaliyyəti ilə türkçülüyüə xidmət göstərmiş şəxslərdən birirdir. Onun Azərbaycan, Türkiyə və digər ölkələrdəki çoxsahəli fəaliyyəti türk dünyasının oyanmasına, bir-biri ilə yaxınlaşmasına və mədəni-siyasi birliyinə töhfə vermişdir. O Əli bəy Hüseynzadədən sonra Azərbaycanın ən böyük türkçülürəindəndir. Onun türkçülüyü siyasi və ideoloji cəhətdən daha çox fərqlənir. Əhməd bəy Ağaoğlunun türkçülüyü hər şeydən öncə milli mənlik şüurunun oyanması, formalaşması və millətçilik düşüncəsindən irəli gəlirdi. Onun fikirlərinə görə milliyətçiyinin əsası dil və dindir ki, dil dindən daha irəlidə gəlir. Ortaq tarix, yaxın köklər olsa da dil hər şeydən vacibdir, yaxınlaşma dil vasitəsi ilə başlayır. Türkiyəyə getdikdən sonra Əhməd bəy Ağaoğlunun türkçülük görüşləri daha da inkişaf edir. Türk dərnəyinin qurulmasında yaxından iştirak edərək özünün gələcəkdə fəaliyyət istiqamətlərini bir daha müəyyən etmiş olur. [Əhmədli, 2019, s.95]

İlk dövrlərdə iranzimə meyl edən Əhməd bəy Ağaoğlu türkçülüyə döndükdən sonra türklərin mənsub olduğu sünnü və şiə məzhəbləri arasında mövcud olan konfkuklərin aradan qaldırılması üçün səy göstərmişdir. Əhməd bəy Ağaoğlunun "iranizm"dən türkçülüyə əsl qayıtması Avropadan Azərbaycana qayıdarkən bir müddət yaşadığı İstanbul və sonra isə gəlib qoşulduğu Azərbaycan mədəni-siyasi mühitində baş vermişdir. Əhməd bəyin türk milliyyətçiliyinə gedən yolunun müəyyən zaman kəsimlərində rus təbəəliyi və İranın mədənimməzhəb arealından

keçdiyini söyləmək mümkündür. Bu amillər onun inanclı bir türkçü kimə yetişməsinə mane ola bilməmişdi. [Quliyev, Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi Sayı: 9/1 2020 s.110-123]

Həm jurnalist, publisist, yazıçı, həmdə siyasi fəaliyyəti zamanı türkçülük düşüncəsi onun üçün hər zaman öndə olmuşdur. Azərbaycanda Milli şüurun oyanmasında və milli kimliyin dərk edilməsində onu rolu olduqca böyükdür. Daha şox ideoloji düşüncəsi və məqalələriylə türkçülük düşüncəsinin ideoloji vəziyyətə gəlməsi digər türkçü aydnlarla yanaşı həm də onun adıyla bağlıdır. Yazıçı və şairlərin türkçü ədəbi düşüncəsnin formalaşması onun ideyaları və fikirləri ilə daha da zənginləşmiş və möhkəmlənmişdir. Türkçülük hərəkatının ideoloji əsalarını möhkəmləndirən Əhməd bəy Ağaoğlu yazar kimi də ədəbi türkçülüyün inkişafı üçün öz töhfəsini vermişdir. Tez-tez mətbuat səhəfələrində milli düşüncə, özünüdərk, söykökə qayıdış mövzularında yazılarla çıxış edərək yorulmadan çalışmışdır. [Süleymanlı, 2007, s.60]

Əsas məqsədi və amalı Azərbaycan türklərinin milli oyanışında misilsiz xidmət göstərmək olan Əhməd bəy Ağaolu xalqın milli düşüncəsinin oyanışında böyük xidmətləri danılmazdır. Həm Osmanlı Türkiyəsində, Azərbaycanda həm də, Atatarkün qurduğu Türkiyədə türkçülük məfkurəsinin inkişaf etməsində fədakarcasına zəhməti olmuşdur. Həbslər, sürgünlər, çətinliklər onu öz ideyasından döndərə bilməmişdir. Əhməd bəy Ağaoğlu ömrüboyu türkçülüyə, tərəqqiyə, mədəniyyətə hər zaman önəm vermiş bunun üçün yorulmadan səy göstərmişdir. [Kərimova, Metafizika jurnalı, 2019, cild 2, sayı 3, s.81-94.]

### 2.5.Məmməd Əmin Rəsulzadə

Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri, Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının sədri, jurnalist, publisist, yazar, siyasətçi, istiqlal və millilik hərəkatın öncüllərindən olan Məmməd Əmin Rəsulzadə (1884-1955) Azərbaycanda və ondan kənarda türkçülük düşüncələrinin möhkəmlənməsində və inkişaf etməsində ömrünün sonuna qədər böyük işlər görmüşdür. Siyasət adamı olmaqdan başqa Məmməd Əmin Rəsulzadə şair, redaktor, publisist, araşdırmaçı, filosof, mədəniyyətşünas olaraq da geniş miqyaslı fəaliyyət göstərib. İctimai, publisistik və ədəbi irsində yer alan yüzlərlə məqalələri, millilik və türkçülük naminə yazdığı əsərləri, araşdırmalaru olduqca təqdirə layiqdir. Həm siyasət adamı, həm yenilikçi, həm şair həm də siyasi şərhçi tərəfləriylə Məmməd Əmin Rəsulzadə öz dövrünün nadir şəxsiyyətlərindən idi. XX əsrin əvvəllərində baş verən ictimai-siyasi proseslərdən kənarda qalmayan Məmməd Əmin Rəsulzadə məşğul olduğu fəaliyyət sahələri ilə bu proseslərdə iştirak etmişdir. Xüsusən də millətçilik, özünü və soy kökünü tanıma fikirləri ilə, türkçülük düşüncələri ilə milli oyanışa öz töhfəsini vermişdir. Milli düşüncə və bu istiqamətdə olan problemləri araşdıran, onlarla bağlı çoxsaylı məqalələr yazan Məmməd Əmin Rəsulzadə xalqın gedəcəyi yolu, tutacağı istiqməti də müəyyən edərək bunun türkçülük və tərəqqi olduğunu bildirmişdir. Konseptual düşüncəyə

malik olan çoxsahələ düşüncə sahibi kimi, millətin düşdüyü vəziyyətdən çıxış yolunun maarifçilk və özünütanımada olduğunu göstərərk bu yöndə siyasi sosial-mədəni konseptual fikirlrini ortaya qoymuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin tutduğu inkişaf yollarından biri kimi türkçülük düşüncəsini müdafə edən Məmməd Əmin Rəsulzadə Cümhuriyyətin bayrağının rəmzilərindən olan mavi rəngi keçmişdən bu günə və gələcəyə yol göstərən türkçülük rəngi olduğunu xüsusi ilə vurğulamışdır. Bu düçüncələri öz dövrünün yazar və şairlərini ciddi təsir edərək onların fikirləeində türkçülük meyillərini daha da gücləndirərək idealogiya halına gətirilməsində öz rolunu oyamışdır. O həm də şair və yazar kimi tük tarixi ilə ədəbi-bədii düşüncələrini qələmə alaraq ədəbi türkçülük istiqamətində fəaliyyət göstərmişdir.

Türk dünyasında yeni fikir və oyanışa təkan verən Mirzə Fətəli Axundzadədən başlayaraq Cəmaləddin Əfqani, Əli Süavi, Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, İsmayıl bəy Qaspıralı, Yusif Akçura, Ziya Göyalp kimi düşüncə adamları tərəfindən bütöv bir dövr ərzində mərhələ-mərhələ inkişaf edən "Türkləşmək, islamlaşmaq, müasirləşmək" düşüncəsi Məmməd Əmin Rəsulzadənin simasında daha da möhkəmlənib və bu günə gəlib çatıb. Onun ideyaları ilə Xalq Cümhuriyyəti və cümhuriyyət dövrü şairlərinin milli ideoloji şeirləridir. [Əhmədli, 2017, s.235]

Məmməd Əmin Rəsulzadə Qafqaz türklərnin milli düşüncə, isiqlaliyyət və azad yaşamaq fikirlrini hər zaman müdafiə edərək onların tarixi keçmişinə diqqət çəkərk, onların yaratdığı ədəbiyyat nümunələrini yüksək qiymətləndirmişdir. Hürriyyəti, azdalığı tərənüm edən şairləri hər zaman nümunə gətirərək, onların milli ideoloji düşüncənin möhkəmlənməsində roluna diqqət çəkmişdir. Ədəbi türkçülüyün yarandığı və genişləndiyi bir vaxtda Məmməd Əmin Rəsulzadə bu ədəbi istiqmətin siyasi və sosial qaynaqları olan çoxsaylı publisistik yazılar nəşr etdirmişdir. [Həsənov, Akademik Tarih ve Düşünce Dergisi, Cilt:8 / Sayı:2, Haziran 202, s. 703-718, Erişi: 18.03.2024]

Həm Azərbaycanda həm də mühacirətdə oldğu dövlərdə yazdığı məqalə və araşdırmalrda Məmməd Əmin Rəsulzadə ədəbi düşüncəyə, poezyaya yer ayırmış, şairlərin azadlıq, istiqlal və türkçülük düşüncəsini ehtiva edən əsərlərdən nümunələr gətirərərk milli düşüncənin əhəmiyyətini qeyd etmiş, türkçülük fikirlərinə böyük əhəmiyyət vermişdr.

**2.6.Üzeyir bəy Hacıbəyli**

Bəstəkar, musiqiçi, dramaturq, yazar, jurnalist Üzeyir bəy Hacıbəyli (1885-1948) Rusiyada 1905-1907-ci illər inqilabı ərəfəsində Bakıya gəlmiş, Bibiheybətdə, sonralar isə "Səadət" məktəbində dərs demişdir. O, Bakıda ədəbi publisistik fəaliyyətə başlayaraq "Həyat" qəzetində tərcüməçi işləmiş, həmin gündən nəşr edilməyə başlayan "İrşad" qəzetinin əməkdaşı olmuşdur. Üzeyir bəy Hacıbəylinin yaradıcılığında türk dili ilə bağlı lüğətlərin tərtibi xüsusi yer tutub. 1907-ci ildə Bakıda Azərbaycan türkcəsində "Hesab məsələləri" və "Mətbuatda istifadə olunan Siyasi, Hüquqi, İqtisadi və Əsgəri Sözlərin Türki-Rusi və Rusi-Türki lüğəti" ni nəşr

etdirmişdir. 120 səhifəlik iki hissədən ibarət olan "Türk-rus və rus-türk" lüğətini hazırlayaraq nəşr etdirmişdir. Bununla da o, türkcənin lüğət bazasının yaranması baxımından ciddi bir iş görmüşdür. Üzeyir bəy Hacıbəyli Bakıda və digər yerlərdə müəllimlik fəaliyyəti göstərmiş, gələcəyin vətənpərvər ziyalılarının yetişməsində rol oynamışdır. Türkcə kitabların az olması və dərsliliklərin azlığını nəzərə alan Üzeyir bəy Hacıbəyli öz bu işin öhdəsindən gəlməyə çalışmışdır. Onun tərtib etdiyi "Hesab məsələləri" dərsliyi Orucov qardaşları mətbəəsində çap edilmişdir. Üç hissədən ibarət olan dərsliyə daxil edilən məsələlər pedaqoji tələblərə cavab verən sistemli şəkildə hazırlanmışdır. O dövrdə pedaqoji fəaliyyətlə məşğul olan şəxslər bu dərsliyi türk məktəbləri üçün faydalı və lazımlı dəsr vəsait kimi dəyərləndirmişlər.

Ədəbi yaradıcılığa publisistika ilə başlayan Üzeyir bəy Hacıbəyli xalqın azadlıq və maarifçilik uğrunda mübarizəsinə, milli düşüncəsnin formalaşmasına xidmət edib. Onun "Molla Nəsrəddin", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal" və digər mətbuat orqanlarında dərc etdirdiyi müxtəlif ədəbi-bədii yazılarnda, felyeton və məqalələrində ana dilinin tədrisi, türkcə məktəblərin sayının artırılması, köhnəliyə qarşı mübarizə əsas məqsdə daşımışdır. [Şiriyeva, https://www.muallim.edu.az/news.php?id=26370]

1914-1918-ci illərdə "Yeni iqbal" qəzetinin redaktoru, daha sonra "Azərbaycan" qəzetinin redaktoru olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin və Bolşevik Azərbaycanın dövlət himnlərinin bəstəkarı olmuşdur. O, 1927-ci ildə Müslüm Maqomayevlə birgə ilk "Azərbaycan türk el nəğmələri" məcmuəsini nəşr etdirmişdir. [Hacıbəyli, I cild., 2005, s.15]

Üzeyir bəy Hacıbəylinin tərtib etdiyi lüğətlər və hazırladığı kitablar türkcənin yazı halında müəyyən bir sistemin formalaşmasında rol oynamışdır. Onun müəllifi olduğu bu kitablar yazarlar, juralistlər üçün türkcənin qaydalarının istifadəsi və söz bazası kimi ciddi əhəmiyyətə malikdir. Ədəbi düçüncəyə təsiri və türkçülük fikirlərinin yayılmasında Üzeyir bəy Hacıbıylinin fəaliyyəti lüğətçilik və qəzetçilik fəaliyyəti yönündən daha çox təqdirəlayiqdir. Onun türkcənin saflığının qorunması və yazı halında işlənməsi üçün əvəzolunmaz xidmətləri vardır. [Ömərov, https://www.anl.az/down/meqale/ses/2012/aprel/246894.htm]

Müxtəlif qəzet və jurnallarda hər zaman aydın türkcədən istifadə edən Üzeyir bəy Hacıbəyli milli düşüncəsinin oyanmasını, xalqın özünü və soykökünü tanımasını həmişə önə çəkmişdir. O özünün məqalə və felyatonlarında ana dilinin saflığı məsələsini qaldırmış, bu dilin yad sözlərdən, xüsusən də ərəb və fars tərkibli sözlərdən təmizlənməsinə, aydın və rəvan Azərbaycan türkcəsi olmasına səy göstərmişdir.

**3.Nəticə**

Yuxarıdakı araşdırma və təhlillərdən aydın olur ki, Azərbaycan ədəbiyyatında ədəbi türkçülük meyilləri şair və yazarları təsirləndirmiş, eyni zamanda onları türkçülüyün fəal tərəfdarlarına çevirmişdir. Öz dövrünün fikir adamları, ziyalıları, düşüncə sahibləri olan Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu Məhəmməd Əmin Rəsulzadə, Üzeyir bəy Hacıbəyli türkçülük ideologiyasının Qafqazda, xüsusən də Azərbaycanda yayılması

və inkişaf etməsində önəmli rol oynamışlar. Məhz bunların təbliğatı, çağırışları, yazıları və fikirləri ilə təsirlənən yazarlar, xüsusən də şairlər ədəbi türkçülük ideyası ilə bağlı müxtəlif əsərlər ortaya qoymuşlar. Mənbəyini və ideoloji konsepsiyasını türkçülük düşüncəsinin ideoloqlarından alan ədəbi türkçülük bu ideologiyaının genişlənməsində xüsusən də, xalq kütlələri içinə yayılmasında mühüm əhəmiyyət kəsb etmişdir. Ədəbi türkçülük siyasi türkçülüklə yanaşı XX əsrin əvvələrindən başlayaraq milli oyanışı, özünüdərketmə prosesini, azadlıq və hürriyyət istəklərini şərtləndirmiş və ciddi təkanverici qüvvəyə çevrilmişdir.

## ƏDƏBİYYAT

**1.** Əhmədli, R. (2007). *Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: Türkçülük, müasirlik, islamçılıq*. Bakı: Elm Nəşriyyatı. s. 77.
**2.** Əhmədli, B. (2019). *Türkçülüyün üçlü formulu: Nəzəri və tarixi aspektləri*. Bakı: Elm və Təhsil. s. 75.
**3.** Zərdabi, H. B. (2013). *Xatirələrdə* (Tərtib edən: T. Aydınoğlu). Bakı: Aspoliqraf. s. 36.
**4.** Əliyeva, İ. S. (2013). Milli mətbuatımızın banisi H.B. Zərdabi. *Bakı Universitetinin Xəbərləri, 2*, 176–180.
**5.** Aşırlı, A. (2009). *Azərbaycan mətbuatı tarixi.* Bakı: Elm və Təhsil. s. 26.
**6.** Həsənova, S. (2006). *Əli bəy Hüseynzadənin dilçilik görüşləri*. Bakı: Naxçıvan Müəllimlər İnstitutu. s. 18.
**7.** Osmanlı, V. (2010). *Azərbaycan romantizmi (Birinci cild)*. Bakı: Elm. s. 31.
**8.** Əhmədli, B. (2017). *Azərbaycan mühacirət ədəbiyyatı: Təşəkkülü, problemləri, şəxsiyyətləri*. Bakı: Elm və Təhsil. s. 186. https://anl.az/el/emb/Cumhuriyyet/kitablar_az/2017-909.pdf
**9.** Quliyev, V. (2020). Əhməd Ağaoğlu Paris elmi-ədəbi mühitində və mətbuatında. *Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi, 9*(1), 110–123. https://dergipark.org.tr/en/download/article-file/1024555
**10.** Süleymanlı, M. (2007). *Əhməd Ağaoğlunun ilk elmi əsəri: Şiə dinində məzdəki inancları.* Bakı: Letterpress MMC. s. 60. https://anl.az/el/Kitab/2014/Azf-256196.pdf
**11.** Karimova, A. (2019). Ahmed bek Agaoglu About the Need for Reforms in Islamic Education and Culture. *Metafizika journal, 2*(3), 81–94. https://doi.org/10.33864/mtfzk.2019.42
**12.** Həsənov, R. (2020). Azərbaycan siyasi xadimlərinin XX əsrin əvvəllərində mövcud olan siyasi sistemlərdəki yeri. *Akademik Tarih ve Düşünce Dergisi, 8*(2), 703–718. Erişi: 18.03.2024, https://dergipark.org.tr/tr/download/article-file/1661136
**13.** Şiriyeva, Z. Üzeyir Hacıbəyovun yaradıcılığı və maarifçilik fəaliyyəti. https://www.muallim.edu.az/news.php?id=26370.
**14.** Hacıbəyli, Ü. (2005). *Seçilmiş əsərləri. İki cilddə. 1 cild*. Bakı: Şərq-Qərb. s. 15.

**15.** Öмərov, V. Üzeyir Hacıbəyov və azərbaycançılıq. https://www.anl.az/down/meqale/ses/2012/aprel/246894.htm.

## REFERENCES

**1.** Ahmedli, R. (2007). *The National-Democratic Statehood Ideology of Azerbaijan: Turkism, Modernity, Islamism.* Baku: Elm Publishing. p. 77. (In Azerbaijani)
**2.** Ahmedli, B. (2019). *The Triple Formula of Turkism: Theoretical and Historical Aspects.* Baku: Science and Education. p. 75. (In Azerbaijani)
**3.** Zardabi, H. B. (2013). *In Memories* (Compiled by T. Aydinoglu). Baku: Aspoliqraf. p. 36. (In Azerbaijani)
**4.** Aliyeva, I. S. (2013). Founder of Our National Press, H.B. Zardabi. *Bulletin of Baku University, 2*, 176–180. (In Azerbaijani)
**5.** Ashirli, A. (2009). *History of Azerbaijani Press.* Baku: Science and Education. p. 26. (In Azerbaijani)
**6.** Hasanova, S. (2006). *Ali bey Huseynzade's Linguistic Views.* Baku: Nakhchivan Teachers' Institute. p. 18. (In Azerbaijani)
**7.** Osmanli, V. (2010). *Azerbaijani Romanticism (Volume One).* Baku: Science. p. 31. (In Azerbaijani)
**8.** Ahmedli, B. (2017). *Azerbaijani Emigrant Literature: Formation, Problems, Personalities.* Baku: Science and Education. p. 186. https://anl.az/el/emb/Cumhuriyyet/kitablar_az/2017-909.pdf (In Azerbaijani)
**9.** Guliyev, V. (2020). Ahmed Agaoglu in the Scientific-Literary Environment and Press of Paris. *International Journal of Turkish Literature Culture Education, 9*(1), 110–123. https://dergipark.org.tr/en/download/article-file/1024555 (In Azerbaijani)
**10.** Suleymanli, M. (2007). *Ahmed Agaoglu's First Scientific Work: Mazdak Beliefs in the Shia Religion.* Baku: Letterpress LLC. p. 60. https://anl.az/el/Kitab/2014/Azf-256196.pdf (In Azerbaijani)
**11.** Karimova, A. (2019). Ahmed bek Agaoglu on the Need for Reforms in Islamic Education and Culture. *Metafizika Journal, 2*(3), 81–94. https://doi.org/10.33864/mtfzk.2019.42. (In Azerbaijani)
**12.** Hasanov, R. (2020). The Role of Azerbaijani Political Figures in the Existing Political Systems of the Early 20th Century. *Academic History and Thought Journal, 8*(2), 703–718. Retrieved March 18, 2024, from https://dergipark.org.tr/tr/download/article-file/1661136. (In Turkish)
**13.** Shiriyeva, Z. Uzeyir Hajibeyov's Creativity and Educational Activities. Retrieved from https://www.muallim.edu.az/news.php?id=26370. (In Azerbaijani)
**14.** Hajibeyli, U. (2005). *Selected Works. In Two Volumes. Volume 1.* Baku: East-West. p. 15. (In Azerbaijani)
**15.** Omerov, V. Uzeyir Hajibeyov and Azerbaijani Nationalism. Retrieved from https://www.anl.az/down/meqale/ses/2012/aprel/246894.htm. (In Azerbaijani)